

## Zakir Xudayaşükür

***

Mən kim — nəfs itinin arxa ayağı,
Topal qarışqatək xidmətim yoxdur.
Çox çətin qamçıla, ey Həq çubuğu,
Min bir həvavardir, himmətim yoxdur.
Hər kəsə aşiqliqlafin deyirik,
Baxmaği çəkməyib dünya malından.
Bir imləQafı dağın itələyirik,
Qorxmadan fal görüb mübhəmtaləddən.
Qorxuram, nəyləyim, necə ahvalim —
Sözümdə sifətim xəbəri vardir.
Açundumaninda itər kəmalim,
Bir bax, dumandan son qəməri vardir.
Sidq atı O yana getsə biqərar,
Özümü sədaqət yerində görsəm.
Həvəs bitsə məgər mənə nədir ar —
Başımı O Ayın altında görsəm.

***

Çiçək sənasöylərxöşadab ilə,
Köpək cununsiffət zikrə düşdü.
Ulduzlar dost oldu o turab ilə,
Yazıq dağların də köksü uvuşdu.
Qarışqa bu gecə çəkdi riyazət,
Quşlar səhər qədər çevirdi təsbih.
Qurdu tərk eylədi yenəhəlavət,
Quruyan ağac da səna dedi, eh...
Varlıq dualara gömüldü aşkar,
Səhər küləkləri apardi bir dəmdə.
Məhvəş yanağı tərk etdi qəm-qubar,
Cahillər uyudu böyük həşəmdə.
...Vahkim, çiyinimizdə edilən günah,
Dur, üsyana doğru atma bir addım.
Bu gecə məni də azarla İlah —
Məğrib və Məşriqi ağladan Sənəm.

***

Cana min bir azarlar çatdi,
Açılmazmi könül qülfləri?
Mənə də çox bazarlar çatdi,
Dara apar məhvəş zülfləri.
Sirtmağında dolana dursam,
Dil evinə eşq qonağölsa.
İmrənib son oyana dursam,
Cansız cana canan can olsa.
Bundan başqa variolmayir,
Özdəngetsem böyük həybətdən.
Bu şərbətdir, içən ölmayir,
Mənə də suncanbəhş şərbətdən.

***

Hər hökm hökmündə, hökmündəyim mən,
Qəlbimi bir xöş-xöşnəy etsən, nəylər?
Hər dəfə adladsan — mülkündəyim mən,
Quru dodağıma məy tutsan, nəylər?!
Damla su tutanda bitməz ümman,
Qədimdən hər şeyin riayəti var.
Xeyriyyəçiliyilə məşhur olar sultan,
Məşuqun aşiqa inayəti var!
Ruhum paltarını tozdan xilas et,
Bir sıçrayışla heç palçiq olmaz çay.
Köhnənin yerinə işığdan libas et,
Bir sıçrayışla axı tükənməz işığ.
...Nə zaman, pərvanə şamindanqaçir —
Hər nəki istəsən — ilkindəyim mən.
Qoydum astananaçarəsizcə baş,
Hər hökm hökmündə, hökmündəyim mən.

Türküstan.- 2022.- 10-14 mart.- S.14.

**Tərcümə etdi:**
**Rəhmət Babacan**